Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ MALİYYƏ TEXNOLOGİYALARI VƏ İNNOVASİYALAR DEPARTAMENTİ HAQQINDA ƏSASNAMƏ

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının maliyyə texnologiyaları və innovasiyalar departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi maliyyə texnologiyaları və innovasiyalar sahəsində yerli mühitin formalaşdırılması, bu mühiti dəstəkləyən tənzimləyici və nəzarət mexanizmlərinin yaradılması, rəqəmsal maliyyə xidmətlərinin əlçatanlığının genişləndirilməsi, müvafiq sahə üzrə dövlət-özəl tərəfdaşlığının inkişafı və təşviqi, beynəlxalq aləmdə baş verən inkişaf tendensiyalarını nəzərə alaraq, müasir texnologiyaların və texnoloji həllərin əldə olunması vasitəsilə maliyyə inklüzivliyinin genişləndirməsi, innovativ xidmət və məhsulların təqdim edilməsi üçün sınaqdan keçirilməsi, habelə maliyyə bazarlarında şəffaflığın və sağlam rəqabətin təşviq edilməsidir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. beynəlxalq aləmdə maliyyə texnologiyaları sahəsində baş verən yeniliklərin davamlı olaraq izlənilməsinə və xarici təcrübənin öyrənilməsinə, müasir tələblərə cavab verən və maliyyə texnologiyaların inkişafına təkan verən informasiya sistemlərinin yaradılmasına və daim keyfiyyətinin artırılmasına dəstək göstərilməsi;

3.2. maliyyə bazarlarında mövcud infrastruktur həllərinin təkmilləşdirilməsi və innovativ məhsulların yaradılması və bazar iştirakçılarının istifadəsinə təqdim edilməsinə dəstəyin təmin edilməsi;

3.3. maliyyə bazarlarında innovasiyaların tətbiqi və inkişafı üçün qabaqcıl tənzimləyici və nəzarət yanaşmasının öyrənilməsi, bazarın tələbatına cavab verən hüquqi tənzimləmə mexanizminin yaradılması;

3.4. maliyyə bazarları iştirakçıları üçün əlverişli mühitin yaradılması və effektiv nəzarət çərçivəsinin formalaşdırılması məqsədilə xüsusi tənzimləmə rejiminin tətbiqi və bu sahədə fəaliyyətin təşkili;

3.5. maliyyə texnologiyaları üzrə tətbiq edilən informasiya sistemlərinin texniki və proqram platformalarının etibarlı və davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə Mərkəzi Bankın aidiyyəti struktur bölmələri ilə birlikdə fəaliyyətin təmin edilməsi;

3.6. maliyyə texnologiyaları üzrə tətbiq edilən informasiya sistemlərinin digər sistemlərlə inteqrasiyasının təşkil edilməsi;

3.7. ölkənin maliyyə bazarlarında rəqəmsal transformasiyanı dəstəkləyən mərkəzləşdirilmiş informasiya resurslarının yaradılması, nəzarət subyektlərinin həmin resurslara inteqrasiyasının və yaradılmış mühitin davamlı fəaliyyətinin təmin edilməsi;

3.8. maliyyə bazarları iştirakçıları və aidiyyəti qurumlar ilə birgə fəaliyyət çərçivəsində yeni maliyyə texnologiyalarının və innovasiyaların tətbiqi və davamlı inkişafı üzrə əsas istiqamətlərin müəyyən edilməsi;

3.9. rəqəmsal maliyyə həllərinin inkişafı, bu sahədə innovasiyaların geniş miqyasda təşviqi və yerli mühitin gücləndirilməsi üçün təbliğat xarakterli təşəbbüslərin irəli sürülməsi;

3.10. ölkənin rəqəmsal maliyyə ekosisteminin beynəlxalq miqyasda tanıdılması, mövqeyinin gücləndirilməsi üçün yerli tərəfdaşlar və beynəlxalq təşkilatlarla strateji əməkdaşlığın qurulması;

3.11. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.12. Departamentə daxil olan daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.13. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Maliyyə texnologiyalarının təhlili və inkişafı şöbəsi;

4.1.2. Maliyyə bazarlarında tərəfdaşlığın inkişafı və təşviqi şöbəsi;

4.1.3. Xüsusi tənzimləmə rejiminin təşkili şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətləri direktor müavininə (olduqda) həvalə edilir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Maliyyə texnologiyalarının təhlili və inkişafı şöbəsi:**

5.1.1. ölkədə maliyyə texnologiyaları sahəsi üzrə baş verən yenilikləri daim izləyir, innovativ həllərin və alətlərin istifadəsi istiqamətində araşdırmalar aparır, müvafiq təklifləri formalaşdırır, bu istiqamət üzrə inkişaf strategiyalarını hazırlayır;

5.1.2. maliyyə bazarlarında tənzimləyici tələblərə riayət olunması üzrə həyata keçirilən proseslərin effektivliyinin artırılması (RegTech) və nəzarətin səmərəliliyinin yüksəldilməsi məqsədilə istifadə olunan texnologiyaların (SupTech) tətbiqi istiqamətində təhlillər aparır, yerli və xarici təcrübəni araşdırır və fəaliyyətin təşkilində iştirak edir;

5.1.3. maliyyə texnologiyaları sahəsində qabaqcıl maliyyə institutları ilə kommunikasiyanı qurur və beynəlxalq təcrübəni öyrənir;

5.1.4. İnformasiya texnologiyaları departamentinin proqramlaşdırma üzrə məsul şöbəsi ilə birgə maliyyə bazarlarında maliyyə texnologiyalarının inkişafı istiqamətində avtomatlaşdırılacaq sahələri müəyyən edir və realizasiyasında dəstək olur;

5.1.5. maliyyə bazarlarında maliyyə texnologiyalarının və innovasiyaların yaradılması, pilot rejimində yoxlanılması və tətbiqində iştirak edir, həmçinin bu istiqamətdə fəaliyyəti əlaqələndirir;

5.1.6. maliyyə bazarlarında maliyyə texnologiyaları üzrə texnoloji standartların hazırlanması, tətbiqi və daim aktuallığının təmin edilməsi üzrə fəaliyyəti təşkil edir;

5.1.7. maliyyə bazarlarında maliyyə texnologiyaları üzrə tətbiq edilən informasiya sistemlərinin və rəqəmsal həllərin layihələndirilməsində, yaradılmasında,

sınaqdan keçirilməsində, qarşılıqlı inteqrasiyasında, istismara verilməsində və davamlı modernizasiyasında iştirak edir;

5.1.8. informasiya texnologiyaları alətlərinin layihələndirilməsində, yaradılmasında, test rejimində sınaqdan keçirilməsində və istismara verilməsində iştirak edir;

5.1.9. innovativ məhsulların inkişafını təmin edən xüsusi tənzimlənən texniki sınaq mühitini yaradır və bazar iştirakçılarının bərabər şərtlərlə iştirakını təmin edir;

5.1.10. maliyyə institutlarının rəqəmsal kanallar vasitəsilə dövlət və özəl məlumat mənbələrinə çıxışını asanlaşdırmaq məqsədilə dövlət qurumları ilə əməkdaşlıq edir;

5.1.11. maliyyə bazarlarında maliyyə texnologiyalarının və innovasiyaların tətbiqinin genişləndirilməsi və bu sahədə fəaliyyətin dəstəklənməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak edir;

5.1.12. rəhbərliyin tapşırığı ilə fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Maliyyə bazarlarında tərəfdaşlığının inkişafı və təşviqi şöbəsi:**

5.2.1. beynəlxalq aləmdə maliyyə texnologiyalarının və innovasiyaların tətbiqi ilə bağlı təcrübələrin izlənilməsini, öyrənilməsini, ölkədə tətbiqi ehtimallarının araşdırılmasını və əldə oluna biləcək faydaların effektivliyinin qiymətləndirilməsində iştirak edir;

5.2.2. maliyyə texnologiyaları və innovasiyaların tətbiqi üzrə bazar araşdırmasını aparır, texnoloji həlləri təhlil edir və tətbiqi üçün təkliflər hazırlayır;

5.2.3. Mərkəzi Bankın struktur bölmələrinin dövlət orqanları, maliyyə bazarları iştirakçıları və digər yerli və beynəlxalq təşkilatlarla maliyyə texnologiyalarının tətbiqi sahəsində qarşılıqlı fəaliyyətini əlaqələndirir;

5.2.4. maliyyə bazarlarında maliyyə texnologiyalarının və innovasiyaların tətbiqi məqsədilə təbliğat və təşviqat üzrə tədbirlər planını illik əsasda hazırlayır və plan üzrə işlərin icrasını təşkil edir;

5.2.5. ölkənin maliyyə texnologiyaları ekosisteminin beynəlxalq miqyasda tanıdılması istiqamətində təbliğat məqsədli təşəbbüslərə dəstək olur;

5.2.6. maliyyə texnologiyaları sahəsində ictimaiyyətin məlumatlandırılmasını, habelə müvafiq internet səhifəsini Mərkəzi Bankın aidiyyəti struktur bölmələri ilə birgə

əməkdaşlıq çərçivəsində yaradılmasını, səhifədə məlumatların yerləşdirilməsini və daim yenilənməsini təmin edir;

5.2.7. maliyyə texnologiyalarının və innovasiyaların əhəmiyyətini və faydalarını əks etdirən məlumatların mətbuatda, sosial media platformalarında və digər kommunikasiya kanalları vasitəsi ilə davamlı olaraq yayımlanmasını təmin edir;

5.2.8. müvafiq sahənin inkişafını təmin etmək məqsədilə əməkdaşlıq və əlaqələrin qurulmasını təşviq edən layihələrin, tədbirlərin və təşəbbüslərin yaradılması və koordinasiyasını və fəaliyyət istiqamətlərinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar və digər tədbirlər təşkil edir, ölkə daxilində və xaricində keçirilən bu cür tədbirlərdə iştirak edir;

5.2.9. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və təlim proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir;

5.2.10. maliyyə texnologiyalarının və innovasiyaların inkişafı üzrə yerli və beynəlxalq təşkilatlar ilə əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin effektiv əlaqələndirilməsini təmin edir;

5.2.11. rəhbərliyin tapşırığı ilə fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Xüsusi tənzimləmə rejiminin təşkili şöbəsi:**

5.3.1. maliyyə bazarlarında innovativ xidmət və məhsulların tətbiqi məqsədilə xüsusi tənzimləmə rejiminin tətbiqini və davamlı təkmilləşdirilməsi istiqamətində fəaliyyəti təmin edir;

5.3.2. hüquqi şəxslər tərəfindən innovativ xidmət və məhsulların məhdud çərçivədə Mərkəzi Bankın nəzarəti altında sınaqdan keçirilməsini təşkil edir;

5.3.3. xüsusi tənzimləmə rejimində iştirak üçün müraciətləri qəbul edir, baxır və qiymətləndirir;

5.3.4. xüsusi tənzimləmə rejimində iştirakına razılıq verilmiş ərizəçi ilə müqavilənin bağlanması işini təşkil edir;

5.3.5. xüsusi tənzimləmə rejimi iştirakçılarının reyestrini aparır və qanunvericiliyə müvafiq olaraq Mərkəzi Bankın rəsmi internet səhifəsində açıqlayır;

5.3.6. xüsusi tənzimləmə rejimində iştirakla bağlı müqavilədən irəli gələrək xüsusi tənzimləmə rejimi iştirakçısı tərəfindən sınağın həyata keçirilməsinə nəzarət edir;

5.3.7. müvafiq sahə üzrə Mərkəzi Bankın aidiyyəti struktur bölmələri arasında fəaliyyətin koordinasiyasına, həmçinin fəaliyyətin effektiv təşkilinə və idarə edilməsinə nəzarət edir;

5.3.8. xüsusi tənzimləmə rejiminin tətbiqi, fəaliyyəti və koordinasiyası üzrə bütün maraqlı tərəflərin məlumatlandırılmasını və davamlı olaraq təlimatlandırılmasını təmin edir;

5.3.9. xüsusi tənzimləmə rejiminin tətbiq dairəsinin genişləndirilməsi, effektivliyinin artırılması məqsədilə xüsusi tənzimləmə rejiminin, habelə maliyyə bazarlarının iştirakçıları ilə mütəmadi olaraq görüşlər keçirir;

5.3.10. qabaqcıl təcrübəyə əsasən xüsusi tənzimləmə rejiminin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə inkişaf etdirilməsi üzrə təkliflər hazırlayır;

5.3.11. xüsusi tənzimləmə rejimində sınağın nəticəsi uğurlu olduğu təqdirdə sınaqdan keçmiş innovativ xidmət və məhsul üzrə normativ hüquqi aktın hazırlanması barədə təklif verir və layihənin hazırlanmasında iştirak edir;

5.3.12. xüsusi tənzimləmə rejimi üzrə fəaliyyət barədə hesabat hazırlayır və Mərkəzi Bankın rəhbərliyinə təqdim edir;

5.3.13. rəhbərliyin tapşırığı ilə fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**